# Prezident Kitabxanasından Elçin Əfəndiyevin xatirəsinə ehtiram nümunəsi

Prezident Kitabxanasında Xalq yazıçısı Elçin Əfəndiyevin xatirəsinə həsr olunmuş anım həftəsi keçirilir.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, həftə çərçivəsində görkəmli yazıçının həyat və yaradıcılığını əhatə edən sərgi hazırlanaraq oxucuların ixtiyarına verilib.

Elçin Əfəndiyevin əziz xatirəsinə ehtiram əlaməti olan bu sərgidə yazıçının müəllifi olduğu əsərlər, haqqında nəşr olunmuş kitablar, eləcə də onun ədəbi və ictimai fəaliyyətinə dair müxtəlif materiallar təqdim olunur.

Sərginin məqsədi yazıçının zəngin irsini yeni nəsillərə tanıtmaq, oxuculara onun ədəbiyyat və mədəniyyətimizə verdiyi töhfələri bir daha xatırlatmaqdır. Eyni zamanda, bu sərgi Elçin Əfəndiyevin çoxşaxəli yaradıcılığının əhəmiyyətini bir daha vurğulayır.

